# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

| Bakı şəhəri | № 271/1 | 18 dekabr 2015-ci il |
|---|---|---|

**Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2016-cı il üzrə iş planları barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə və "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasına (2012-2020-ci illər)" uyğun olaraq, habelə Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının və Palata Şurasının 2015-ci il üzrə iş planının "2016-2018-ci illər üçün Auditorlar Palatasının iş planının hazırlanması" barədə 9.7-ci və 39-cu bəndlərinin icrası ilə bağlı tərtib edilmiş Auditorlar Palatasının və Palata Şurasının 2016-cı il üzrə iş planlarının layihəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2016-cı il üzrə iş planları təsdiq edisin (əlavə olunur).

2. Auditorlar Palatasının Aparatına (Q.Bayramov, N.Talıbov, F.Qarayev) və struktur bölmələrin rəhbərlərinə (M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov, R.Cəfərli, F.Məmmədova) tapşırılsın ki:

- təsdiq edilmiş iş planlarında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər;
- iş planlarında müvafiq işlər üzrə plan-proqramların və qrafiklərin Palatanın Şurası yanında Komitələrin rəyləri nəzərə alınmaqla 15 yanvar 2016-cı il tarixə kimi təqdim etsinlər.

3. Palatanın Şurası yanında Komitələrin rəhbərlərinə (E.Əliyev, Y.Salayev, F.Mustafayev, A.Qurbanov, E.İbrahimov, N.Abbaslı, A.Musayev, N.Kərimov, A.Əliyev, Z.Hüseynov, L.Bayramova, F.Əliyev, İ.Əliyev) tövsiyə edilsin ki, komitələrin əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2016-cı il üzrə iş planlarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsində yaxından iştirak etsinlər.

4. Auditorlar Palatasının Aparatına (Q.Bayramov, N.Talıbov, F.Qarayev) və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, T.Əmiraslanov) tapşırılsın ki, "Azərbaycan Respublikası Auditorlar Palatasının və Palata Şurasının 2016-cı il üzrə iş planlarının Azərbaycan, rus və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**